# GÖZƏTÇİ VƏZİFƏSİ ÜZRƏ MÖVZULAR

**1. "Qeyri-Dövlət mühafizə fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu"**

**2. "Yanğın təhlükəsizliyi haqqında Azərbaycan Respublikasının Qanunu",**

**3. Buraxılış rejimi və obyektdaxili rejim üzrə:**

*Mühafizə və təhlükəsizlik anlayışları*

*Postda fəaliyyət*

*Mühafizə obyektinin xarakteristikası və sxemi*

*Obyektin mühafizə elementləri*

*Ətraf ərazilərin xüsusiyyətləri*

*Müşahidəedici vasitələrdən istifadə*

*Mal-materialların buraxılışının təşkili*

*Kənar şəxslərin buraxılış qaydaları*

*Buraxılış qaydaları*

*Obyektdaxili buraxılış qaydaları*

*Mühafizədə texniki vasitələrdən istifadə*

*Nəqliyyat vasitələrinin buraxılışı*

*Məsuliyyət və hüquq*

**3. Yanğından mühafizə, təhlükəsizlik texnikası və ilkin tibbi yardım üzrə:**

*İlkin yanğınsöndürmə vasitələrindən istifadə*

*İlkin həkiməqədər yardım göstərilmə qaydaları*

*Əməyin mühafizəsi, təhlukəsizlik texnikasının qaydaları*

## ƏDƏBİYYAT:

1. "Qeyri-Dövlət mühafizə fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu", № 266-IIIQ 10.04.200-ci il

2. "Yanğın təhlükəsizliyi haqqında Azərbaycan Respublikasının Qanunu", № 313-IQ 10.06.1997-ci il

3. "Buraxılış qaydaları və obyektdaxili rejim qaydaları" №126 27.08.2007

4. Ə.Abbasov. "Əməyin mühafizəsi və elektrik təhlükəsizliyi". Sumqayıt-2014

5. Fəhlə peşələri və işçilərin Vahid Tarif-ixtisas Sorğu Kitabçası; Hissə-1 Bütün sahələr üzrə ümumi olan fəhlə peşələri. Bakı, 2006

6. T.Ə.Feyzullayeva, S.Ə.Ələkbərova, F.Ə. Məmmədova. "Mülki müdafiənin və tibbi biliklərin əsasları", 2006

7. H.Ocaqov. "Mülki müdafiə", Bakı-2000

8.www.fhn.qov.az  31.05.2018

9.www.e.gov.az 30.05.2018

10.www.din.qov az 29.05.2018

11.www.e.qanun.az  30.05.2018

12.www.socar.az  30.05.2018

**1. Obyektdaxili rejimin həyata keçirilməsinə kim məsuliyyət daşıyır?**
A) İdarə rəhbəri
B) Təhlükəsizlik xidməti
C) Kadrlar şöbəsi
D) Gözətçi
E) İdarə rəhbərinin rejim üzrə müavini

**2. Mal-materialların və digər maddi dəyərlərin obyektlərə gətirilməsi və oradan aparılması hansı sənədlər əsasında həyata keçirilir?**
A) Bu məqsəd üçün yazılmış qaimə və faktura sənədləri əsasında
B) Bu məqsəd üçün verilmiş sərəncam əsasında
C) Bu məqsəd üçün verilmiş göstərişlər və sənədlər əsasında
D) Bu məqsəd üçün verilmiş əmrlər və sənədlər əsasında
E) Bu məqsəd üçün yazılmış qaimə və digər göstəriş vərəqi əsasında

**3. Ehtiyat qapıların vaxtında açılmasına görə kim cavabdehdir?**
A) Qaravul rəisi (gözətçi)
B) Təsərrüfat bölməsi
C) Ümumi şöbə
D) İdarə rəisi
E) Mühafizə xidməti

**4. İşçi buraxılış kartını yaddan çıxarıbsa, buraxılışı necə həyata keçirməli?**
A) Gözətçi kadrlar şöbəsinə məlumat verir, əgər işçi həqiqətən işləyirsə buraxılır, gözətçi jurnalda qeydiyyat aparır
B) Gözətçi mühafizəyə cavabdeh olan şöbəyə məlumat verir, izahat alındıqdan sonra idarə rəisinin icazəsi ilə buraxılır, gözətçi jurnalda qeydiyyat aparır
C) Gözətçi mühafizəyə cavabdeh olan şöbəyə məlumat verir, izahat alındıqdan sonra idarə rəisinin icazəsi ilə buraxılır
D) Gözətçi idarə rəisinə məlumat verir, izahat alındıqdan sonra idarə rəisinin icazəsi ilə buraxılır, gözətçi jurnalda qeydiyyat aparır
E) Gözətçi təsərrüfat bölməsinə məlumat verir, izahat alındıqdan buraxılır, gözətçi jurnalda qeydiyyat aparır

**5. Daimi buraxılış vərəqələri kimlərə verilir?**
A) İdarə rəisi, onun müavinlərinə və şöbə rəislərinə
B) İdarə rəisi, onun müavinlərinə
C) Müddətsiz əmək müqaviləsi bağlanmış fəhlə və qulluqçulara
D) Fəhlələrdən başqa bütün digər işçilərə
E) İdarə rəisi, onun müavinlərinə, mühəndis texniki işçilərə

Nümunə